

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 170 (23.812)

*16 sentyabr 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xəzər rayonunda yeni tikilən 110/35/10 kilovoltluq "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib. "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov Prezident İlham Əliyevə yarımstansiyada görülən işlər barədə məlumat verib.

Xəzər rayonu ərazisində tikilən "Buzovna-1" yarımstansiyası Buzovna, Zuğulba, Albalılıq, Bilgəh, Nardaran, Maştağa qəsəbələrinin, dövlət əhəmiyyətli obyektlərin, həmçinin istirahət, turizm, tibb obyektlərinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsində böyük rol oynayacaq. Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub, ən müasir qurğular və avtomatika sistemi ilə təchiz edilib. Ümumilikdə, "Azərişıq" ASC tərəfindən yeni inşa olunan qapalı tipli yarımstansiyalarda texniki və texnoloji yeniliklərə xüsusi diqqət verilir.

Prezident İlham Əliyev "Buzovna-1" yarımstansiyasını işə salıb. Dövlətimizin başçısına işğaldan azad olunmuş ərazilərdə "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən "Ağıllı şəbəkə konsepsiyası" əsasında görülmüş işlər barədə də məlumat verilib. Bildirilib ki, Şuşa şəhəri və Suqovuşan qəsəbəsinin elektrik təchizatının təmin edilməsində ilk dəfə müasirtipli mühafizəli və izolyasiyalı kabel xətti, paylayıcı şəbəkə modeli tətbiq olunub. Ümumilikdə, işğaldan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təchizatında innovativ texnologiyaların tətbiqi uğurla davam etdirilir.

Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib.

# Muxtar respublikada Bilik Günü qeyd olunub

## *Ordubad rayonunun Aşağı Əndəmic kəndində yeni sosial obyektlər istifadəyə verilib*

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən quruculuq işləri kəndlərin abadlaşmasına, müasir infrastrukturun yaradılmasına və insanların rahat yaşayışına səbəb olmuşdur. Ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi: ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir".*** Həyata keçirilən tədbirlərin davamı olaraq bu il Ordubad rayonunun Aşağı Əndəmic kəndində də geniş abadlıq-quruculuq işləri aparılmış, yeni məktəb binası, kənd və xidmət mərkəzləri tikilmiş, avtomobil yolu çəkilmiş, Ordubad şəhər stadionu yenidən qurulmuşdur.

# Bilik Günündə Əndəmic kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib



Sentyabrın 15-də – Bilik Günündə Əndəmic kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın bütün təhsil müəssisələrinin şagird və tələbələrini, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını, pedaqoji kollektivləri yeni tədris ilinin başlanması, Əndəmic kənd tam orta məktəbinin kollektivini isə həm də yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin inkişafında təhsilin əhəmiyyətini vurğulayaraq demişdir: ***"Gələcək nəslin yetişdirilməsi, onların təhsil alması, Azərbaycana bacarıqlı kadrların hazırlanması çox böyük vəzifədir və ölkəmizin inkişafı məhz bilik səviyyəsindən asılı olacaqdır".*** Ümummilli liderimizin müəllifi olduğu və dövlət başçısı tərəfindən uğurla davam etdirilən təhsil strategiyası Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında yeni mərhələyə yüksəlmişdir. Bütün təhsil pillələri üzrə müasir infrastruktur yaradılmış, kompleks quruculuq işləri aparılaraq maddi-texniki baza möhkəmləndirilmişdir.

"Bu gün muxtar respublika gəncləri hər cür tədris imkanları – kompüterləri, elektron lövhələri, laboratoriyaları, STEAM və fənn kabinələri, ixtisaslı müəllim heyəti olan məktəblərdə təhsil alırlar", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, zəngin kitabxana fondu və elektron dərslik təminatı, xarici dillərin tədrisi, elm müəssisələri, eləcə də muzeylərlə məktəblər arasında keçilən interaktiv dərslər şagirdlərin təhsili ilə yanaşı, həm də dünyagörüşünün formalaşmasına və inkişafına mühüm töhfə verir. Görülən işlərin nəticəsidir ki, ümumtəhsil məktəblərini bitirən gənclərimiz dünyanın istənilən universitetlərində ali təhsil almaq potensialına malikdirlər. Aşağı Əndəmic kəndində yaradılan şərait təhsil infrastrukturu ilə məhdudlaşmır. Kənddə geniş quruculuq işləri aparılmış, kənd və xidmət mərkəzləri tikilmiş, yeni yol çəkilmiş, əhaliyə göstərilən rabitə xidmətlərinin səviyyəsi yüksəldilmiş, bir sözlə, rahat yaşayış təmin olunmuşdur. Bütün bunlar bir kəndin timsalında Azərbaycan dövlətinin öz vətəndaşlarına, sağlam və etibarlı gələcəyinə göstərdiyi qayğının ifadəsidir.



Ali Məclisin Sədri demişdir: Bu gün təhsilin məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, bilikli, peşə sahibi, vətənpərvər, ulu öndərin ideyalarına sadiq, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Pedaqoji fikirdə də belə bir qayda var ki, şagirdlərin mənəvi dünyasını yalnız tədrisə, oxumağa sığışdırmaq olmaz; o məktəbli olmaqla yanaşı, həm də çoxtərəfli maraqları, istəkləri və hədəfləri olan insana çevrilməlidir. Əsl müəllimlər şagirdlərinə hazır bilikləri verənlər yox, onların təfəkkürünün formalaşmasına kömək edənlərdir. Ona görə də təhsil müəssisələrinin rəhbərləri, pedaqoji kollektivlər yaradılanlardan səmərəli istifadə etməli, keçilən dərslərdə tariximizə, dilimizə, adət və ənənələrimizə, milli dəyərlərimizə hörmət və qayğı aşılanmalı, gənclər vətənpərvərlik ruhunda tərbiyə olunmalıdırlar. Təhsilli və vətənpərvər gənclikdən danışırıqsa, məktəblə bərabər cəmiyyətin hər bir üzvünün də üzərinə mühüm vəzifələr düşdüyünü unutmamalıyıq. Gənclərin təhsili və tərbiyəsi təkcə məktəbin işi deyil, bu həm də ictimai vəzifədir. Aid dövlət qurumları, eləcə də ailələr gənclərin təlim-tərbiyəsinə kömək etməli, sağlam ailə-məktəb münasibətləri formalaşmalı, valideynlər tədris prosesinə cəlb edilərək övladının davamiyyəti, intizamı və təhsili barədə mütəmadi məlumatlandırılmalı, şagirdlərin məktəbdənkənar asudə vaxtları səmərəli təşkil olunmalıdır. Gənclərimiz də onlara göstərilən etimadı doğrultmalı, hərtərəfli təhsil alaraq peşə sahibinə çevrilməlidirlər. Biliklərə dərindən yiyələnməli, öz intellektual və yaradıcı potensiallarını müstəqil Azərbaycanın inkişafına sərf etməlidirlər.



Ali Məclisin Sədri bu yolda kollektivə uğurlar arzulamış və çıxışını ümummilli lider Heydər Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Dövlət üçün, xalq üçün gənclik hər şeydən qiymətlidir. Gənclərin sağlam böyüməsi, yaxşı təhsil alması hər bir millətin, xalqın***

*Ardı 2-ci səhifədə*



***ən dəyərli sərvətidir. Çünki o, millətin, xalqın gələcəyidir, daimiliyidir, əbədiliyidir".***

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələr kimi, təhsil də dövlət qayğısı ilə əhatə olunmuşdur. Ümumtəhsil məktəblərinin maddi-tədris bazası möhkəmləndirilir, şagirdlərin yüksək təhsil alması, istedad və bacarıqlarının aşkar edilməsi və inkişafı üçün əlverişli tədris şəraiti yaradılır. Müstəqillik illərində muxtar respublikada 200-dən çox təhsil müəssisəsi üçün bina tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Bu gün isə Əndəmic kənd tam orta məktəbi əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilir. Cari tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərində 53 min 524 şagird təhsil alacaqdır ki, onun da 3680-i məktəbəhazırlıq, 5250-si isə birinci sinif şagirdidir.



Şagirdlərin təhsili ilə 7500-dən çox müəllim məşğul olacaqdır ki, onlardan da 120-si ilk dəfə pedaqoji fəaliyyətə başlayan gənc kadrlardır. Yeni tədris ilinin başlanması ilə əlaqədar Ali Məclis Sədrinin tapşırığı əsasında ümumtəhsil məktəblərinə 182 mindən çox yeni dərslik verilmiş, sosial qayğıya ehtiyacı olan şagirdlər məktəbli forması və dərs ləvazimatları, 196 hərbi rəhbər isə xüsusi forma ilə təmin edilmişdir. Rəhman Məmmədov göstərilən hərtərəfli diqqət və qayğıya görə muxtar respublikanın təhsil işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Əndəmic kənd tam orta məktəbinin müəllimi Şəfa Sadiqova demişdir: "Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada digər sahələr kimi, tədrisin yüksək səviyyədə təşkili üçün də hərtərəfli şərait yaradılır. Bilik Günündə Əndəmic kəndinin əhalisinə hədiyyə olunan məktəb binası da kollektiv üçün ən gözəl hədiyyədir. Həyata keçirilən uğurlu təhsil siyasəti, şagird və müəllimlərə göstərilən qayğı, yaradılan şərait biz təhsil işçiləri qarşısında mühüm vəzifələr qoyur, müəllimləri daha yaxşı işləməyə sövq edir və məsuliyyətimizi daha da artırır. Bu cür möhtəşəm, müasir avadanlıqlarla təchiz olunmuş məktəbdə işləmək qürur və fərəh hissi doğurur. Muxtar respublikada müəllim əməyinə həmişə yüksək qiymət verilir. Yaradılan şəraitin nəticəsidir ki, gənclər müsabiqə yolu ilə işlə təmin olunur, şəhər və rayon mərkəzlərində yaşamalarına baxmayaraq, kənd məktəblərində işləməyə üstünlük verirlər". Şəfa Sadiqova göstərilən hərtərəfli qayğıya görə kollektiv və valideynlər adından minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 252 şagird yerlik məktəbdə 14 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər və psixoloq otaqları, STEAM kabinəsi, kitabxana, 2 qarderob, idman zalı, anbar və təsərrüfat otağı yerləşir. Kitabxana fondunda 4981 kitab vardır.

STEAM kabinəsində 1 elektron lövhə, 2 kompüter, 3D printer quraşdırılmış, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları ilə təchiz edilmişdir. Şagirdlərin hazırladıqları "Günəş izləmə sistemi", "Xətt izləyən robot", "Alqoritmlə işləyən işıqfor" layihələri Ali Məclisin Sədrinə təqdim edilmişdir.



Müəllim Türkanə Məmmədova demişdir: "Naxçıvan təhsili özünün intibah dövrünü yaşayır. Əndəmic kənd tam orta məktəbinin istifadəyə verilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi və STEAM təliminin tətbiqi bunun bariz nümunəsidir. Mən də hər bir gənc kimi yaradılan şəraitdən yararlanaraq STEAM təlim kurslarında iştirak edib sertifikat almışam. Bundan sonra da gənc nəslin təhsilli, vətənpərvər ruhda böyüməsi üçün səylə çalışacağam".



Məktəbdə internetə çıxışı olan 22 kompüter və 4 elektron lövhə quraşdırılmışdır. Bu da tədrisdə yeni texnologiyaların imkanlarından geniş istifadə olunmasına, ən əsası isə dərslərin daha yaxşı qavranılmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri elektron lövhəli sinifdə Heydər Əliyev Muzeyi ilə 200-dən artıq təhsil müəssisəsi arasında "Ümummilli lider Heydər Əliyev və təhsil siyasəti" mövzusunda keçilən interaktiv dərsi izləmişdir.

Şagirdlərin nəzəri biliklərini möhkəmləndirmək üçün kimya, biologiya və fizika laboratoriyalarında müasir avadanlıqlar quraşdırılmış, idman zalında yeniyetmələrin fiziki sağlamlığının qorunması üçün lazımi şərait yaradılmışdır. Şagirdlərin hərbi hazırlığının və vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi məqsədilə məktəbdə hərbi kabinə də fəaliyyət göstərir. Şahmat sinfinin bütün lazımi avadanlıqlarla təchiz olunması isə dərslərin daha yaxşı tədrisinə imkan yaradır.

Ali Məclisin Sədri birinci sinifdə təhsil alan şagirdlərin dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, 2021-2022-ci tədris ilində məktəbin birinci sinfinə 16 şagird qəbul olunmuşdur.



Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul edilən fəaliyyət proqramında ***bütün təhsil pillələri üzrə infrastrukturun müasirləşdirilməsi və yaradılan şəraitdən səmərəli istifadə, innovasiyaların tətbiqi və ixtisaslı kadr hazırlığının diqqətdə saxlanılması prioritet sahə kimi müəyyənləşdirilmişdir.*** Fəaliyyət proqramına uyğun olaraq muxtar respublikada təhsil müəssisələrinin maddi-tədris bazasının möhkəmləndirilməsi, təhsilin inkişafı, innovativ tədris metodlarının tətbiqi sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Hazırda Ordubad rayonunda Pəzməri, Dırnıs və Validər məktəblərində tikinti və yenidənqurma işləri aparılır. Əndəmic kənd tam orta məktəbinin də maddi-tədris bazası yaxşılaşdırılmışdır. Məktəbdə yaradılan şərait təhsilin yüksək səviyyədə təşkilinə, interaktiv və nümunəvi dərslərin keçilməsinə, daha yüksək nəticələrin əldə olunmasına, bilikli və vətənpərvər gənclərin yetişdirilməsinə geniş imkanlar açır.

Məktəbin gənc müəllimi Badisəba Babayeva minnətdarlıq edərək demişdir: Bu gün biz müəllimlərin, o cümlədən şagirdlərin və kənd əhalisinin sevincinin həddi-hüdudu yoxdur. Artıq Əndəmic kəndi də müasir kəndlər sırasına qoşulur. Məktəbimiz yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilir. Ali Məclisin Sədri çıxışlarının birində dediyi kimi, ***"Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir".*** Hər il yüzlərlə şagirdin ali təhsil müəssisələrinə qəbul olması təhsilə göstərilən qayğının, yaradılan müasir tədris şəraitinin nəticəsidir. Belə gözəl və yaraşıqlı məktəb binasında fəaliyyət göstərmək ən böyük arzumuz idi və bu arzumuza da çatdıq. Söz veririk ki, yaradılanları qorumaqla yanaşı, həm də əsl vətənpərvər gənclər yetişdirəcəyik.

Ali Məclisin Sədri demişdir: Bilik Günündə Əndəmic kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi əlamətdar hadisədir. Müasir məktəbdə ölkəmizin gələcəyi olan gənclər yüksək səviyyədə hazırlanacaqlar. Gənclər təhsil almaqla bərabər, vətənpərvər böyüməli, öz tarixinə, milli dəyərlərinə, dilinə hörmət etməlidirlər. Müasir tədrisin tələblərinə tam cavab verən Əndəmic kənd tam orta məktəbi güclü tədris bazasına, zəngin kitabxana fonduna və dəyərli pedaqoji kollektivə malikdir. Bu da imkan verəcək ki, müəllim heyəti həm tədrisin keyfiyyətinin yüksəldilməsinə nail olsun, həm də şagirdləri vətənpərvər böyüdə bilsinlər. Muzeylər, ali təhsil müəssisələri ilə interaktiv əlaqələrin qurulması, bundan başqa, elektron dərsliklərin tədrisdə tətbiqi və digər imkanlar gələcək nailiyyətlərin təməlidir.

"Əndəmic kənd tam orta məktəbinin nailiyyətləri qənaətbəxşdir. Son 5 ildə məktəbi bitirən məzunların 84 faizə yaxını ali və orta ixtisas məktəblərinə qəbul olub", – deyən Ali Məclisin Sədri kollektivə təşəkkür etmiş, yaradılan şəraitdən sonra məktəbin nailiyyətlərinin daha da artacağına, muxtar respublikanın qabaqcıl məktəbləri sırasında özünə layiqli yer tutacağına əminliyini bildirmiş, yeni tədris ilində uğurlar arzulamışdır.

Binanın həyətində fərdi qazanxana və bufet tikilmiş, açıq idman qurğuları qoyulmuş, abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.

*Ardı 3-cü səhifədə*

# Aşağı Əndəmic Kənd Mərkəzində hərtərəfli şərait yaradılıb





Sentyabrın 15-də Aşağı Əndəmic kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, mədəniyyət evi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv və 38 yerlik zal yerləşir. Kitabxana fondunda 6299 kitab vardır. Rabitə evində 256 nömrə tutumlu yeni nəsil ATS quraşdırılmışdır. Kənddə 115 internet istifadəçisi vardır.




Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 41 üzvü vardır ki, onlardan da 11-i gənc, 18-i isə qadındır.

Yeni Azərbaycan Partiyası Aşağı Əndəmic kənd ərazi ilk təşkilatının sədri Badisəba Məmmədli yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: "Ordubad rayon Aşağı Əndəmic kənd Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sıraları günü-gündən genişlənir. Qəbul üçün sənəd verənlər çoxdur. Son illər Naxçıvan müasir şəhərə çevrilib. Kənd və rayonlarda aparılan abadlıq-quruculuq işləri geniş vüsət almışdır. Bütün sahələrdə əldə edilən yüksək göstəricilər, davam etdirilən məqsədyönlü tədbirlər muxtar respublikanın dinamik inkişafının nəticəsidir. Muxtar respublikamız uğurla inkişaf edir. Bu uğurların təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Ali Məclis Sədrinin rəhbərliyi ilə bu il də rayonumuzda çox sayda quruculuq işləri görülmüşdür. Söz veririk ki, göstərilən qayğıya cavab olaraq öz işimizi layiqincə yerinə yetirəcək, dövlətimizə daim dəstək olacağıq".

İnzibati ərazi dairəsi üzrə nümayəndə Hikmət Nəsirov demişdir ki, kənd sakinləri, əsasən, ailə təsərrüfatı ilə məşğul olur. Yaradılan şəraitin nəticəsidir ki, təsərrüfatlarda istehsal olunan məhsulların rayon mərkəzi bazarında və Naxçıvan şəhərində təşkil olunan yarmarkalarda rahatlıqla satışı həyata keçirilir.

Bildirilmişdir ki, kənddə əsas diqqət yetirilən sahələrdən biri də baytarlıq işinin təşkilidir. Xəstəliklərə qarşı vaxtında dərmanlama və dezinfeksiya işlərinin aparılması, heyvanların cins tərkibinin yaxşılaşdırılması sağlam heyvandarlıq məhsullarının istehsalına imkan verir. Aparılan profilaktik tədbirlərin nəticəsidir ki, rayonda bu sahədə heç bir xəstəlik müşahidə olunmur.



Binada fərdi istilik sistemi quraşdırılmış, həyətdə abadlıq işləri aparılmışdır.

# Yeniləşən və müasirləşən yollar insanların rahatlığına xidmət edir






Hər bir ölkədə sosial-iqtisadi tərəqqini şərtləndirən amillərdən biri də yol-nəqliyyat infrastrukturunun inkişafıdır. Çünki müasir tələblərə cavab verən yolların mövcudluğu rahat hərəkəti təmin etməklə yanaşı, yerli istehsal məhsullarının itkisiz daşınmasına, turizmin inkişafına imkan verir. Muxtar respublikada da müasir və təhlükəsiz yol şəbəkələri yaradılır, kənd yollarının yenidən qurulması diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində Ordubad şəhər-Aşağı Əndəmic kənd avtomobil yolu yenidən qurulmuşdur.

Sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda yaradılan şəraitlə maraqlanmışdır.

Bildirilmişdir ki, 12,8 kilometrlik avtomobil yolu yenidən qurulmuş, asfalt örtük salınmışdır. 2,8 kilometr beton su kanalı çəkilmiş, 159 su keçidi və 573 metr qoruyucu sədd qoyulmuşdur. Yol çəkilişi zamanı 2750 metr içməli su xətti yenilənmiş, 755 metr yerüstü rabitə xətləri isə yeraltı kabel xətləri ilə əvəz edilmişdir.

# Xidmət mərkəzində yeni iş yerləri açılıb

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Aşağı Əndəmic kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində qadın gözəllik salonu, bərbərxana, dərzi, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları, eləcə də 2 anbar yerləşir. Burada xidmət sahələrinin fəaliyyəti üçün nümunəvi şərait yaradılmış, 6 nəfər işlə təmin olunmuşdur. Mərkəzdə ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışına üstünlük verilir.

Ali Məclisin Sədri xidmət mərkəzində ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların sayının artırılması barədə tapşırıq vermişdir.

Sonra sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sakinləri Aşağı Əndəmic kəndinin müasir kəndlər sırasına qoşulması münasibətilə təbrik edərək demişdir: Əndəmic kəndi bu gün tamamilə abadlaşıb, yenidən qurulub, müasirləşib, insanların rahatlığı təmin olunub, bütün infrastruktur yenilənib. Bütün bunlar sakinlərin rahat yaşayışı üçündür. Kəndin çox yaxşı təsərrüfat ənənələri vardır. Heyvandarlıq, arıçılıq, meyvəçilik inkişaf etdirilir. Ailə təsərrüfatları formalaşıb. Bunların hamısı ölkəmizin iqtisadi inkişafına, möhkəmlənməsinə, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edən amillərdir. Eyni zamanda dövlət orqanlarının fəaliyyəti üçün müasir iş şəraiti yaradılıb. Sakinlər də yaradılan şəraitdən səmərəli istifadə etməli, torpaqlar əkilməli, kəndin abadlığı qorunmalı, ərazidə yaşıllıqlar artırılmalı, təsərrüfatlar genişləndirilməlidir. Bu gün Naxçıvan şəhərində olan infrastrukturla Əndəmic kəndində olan infrastruktur arasında fərq yoxdur. Burada da insanların rahat yaşaması üçün hər cür şərait yaradılıbdır.

Ali Məclisin Sədri kənd sakinlərinə firavan həyat, uzun ömür arzulamışdır.

Aşağı Əndəmic kənd sakinləri adından minnətdarlıq edən ziyalı Tofiq Babayev demişdir: Ali Məclis Sədrinin qayğısı ilə hər bir yaşayış məntəqəsi köklü şəkildə dəyişilib, insanların rifahı üçün yeni-yeni quruculuq işləri görülür. Aparılan uğurlu siyasətin

*Ardı 4-cü səhifədə*





nəticəsidir ki, muxtar respublikada ulu öndər Heydər Əliyevin arzuları gerçəkləşərək respublikamız cənnətməkana dönmüşdür. Həmin quruculuq işlərindən Ordubad rayonuna da pay düşmüşdür. Rayonumuzda da kompleks quruculuq işləri aparılmış, əhali dayanıqlı qaz, işıq, su ilə təmin olunmuşdur. Bu il Ordubad rayonu ərazisində Dırnıs, Kələki, Unus, Pəzməri kəndlərində kompleks tikinti-quruculuq işləri aparılır, infrastruktur yenidən qurulur. Yollar yenidən çəkilir, körpülər salınır, digər lazımi tədbirlər görülür. Bununla bərabər Ordubad rayonunda 2 su elektrik stansiyası tikilir, rayonun qədim tarixə malik olan Ordubad Cümə məscidi əsaslı şəkildə bərpa edilir. Rayon stadionu yenidən qurulub. Görülən işlər bizi ruhlandırır və sevindirir. Bu gün Aşağı Əndəmic kəndinin tarixində çox əlamətdar tarixdir. Ona görə ki, 70 il Sovet hökumətinin görə bilmədiyi işlər qısa



zamanda həyata keçirilmişdir. Əndəmic kəndində məktəb, kənd və xidmət mərkəzləri tikilmiş, yollarımız əsaslı şəkildə təmir olunmuş, asfalt örtük verilmiş, kənddə müasir tipli ATS əhalinin istifadəsinə verilmişdir. Bütün bunlar Bilik Günündə bizə verilən ən böyük hədiyyədir.

* * *

Aşağı Əndəmic kəndində yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə 1200 metr yeni fiber-optik kabel, 1800 metr yeraltı rabitə xətti çəkilmişdir. Həmçinin 2100 metr uzunluğunda izolyasiyasız hava elektrik xətti izolyasiyalı elektrik xətti ilə əvəz olunmuş, 33 dayaq basdırılmış, 14 beton gövdə bərkidilmişdir. Bundan başqa, 215 poqonometr polietilen borularla yeni tikililərə qaz xətti çəkilmiş, 2511 poqonometr qaz xəttində təmir-bərpa işləri aparılmışdır.



## Ordubad Cümə məscidində bərpa işləri davam etdirilir

Muxtar respublikada milli-mənəvi dəyərlərimizin qorunması və dini abidələrimizin bərpası istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Tarixi-memarlıq abidələri, məscid, imamzadə və ziyarətgahlar bərpa olunur. Ordubad şəhərindəki qədim Cümə məscidində də bərpa işləri davam etdirilir.

Sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad şəhərindəki qədim Cümə məscidinin bərpası ilə maraqlanmışdır.

Bildirilmişdir ki, ötən dövrdə abidənin daxili və xarici divarlarında, həmçinin daxili sütunlar və pəncərə-qapı boşluğundakı tağlarda qədim növlü kərpiclərlə üzləmə işləri aparılmışdır. Hazırda məsciddə seramik kərpiclə döşənmə və taxçaların kaşılı kərpiclərlə üzlənməsi işləri aparılır.

Ali Məclisin Sədri bərpa işlərinin davam etdirilməsi və ətrafdakı yolun genişləndirilməsi barədə tapşırıqlar vermişdir.

## Ordubad şəhər stadionu yenidən qurulub





Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, stadionun ümumi sahəsi 8980 kvadratmetrdir. Ərazidə ikimərtəbəli yardımçı bina və 400 nəfərlik tamaşaçı tutumuna malik 2 tribuna inşa edilmiş, sadə idman qurğuları quraşdırılmış, 30 yerlik avtomobil dayanacağı yaradılmışdır. Yeni tikilən ikimərtəbəli binanın birinci mərtəbəsində qarderob və digər köməkçi otaqlar, ikinci mərtəbədə isə qapalı tribuna yerləşir.

Süni örtüklü futbol meydançasının eni 45, uzunluğu isə 90 metrdir. Meydançanın ətrafında qaçış zolağı salınmış, ehtiyat oyunçular üçün hər biri 6 oturacaqdan ibarət 2 yer ayrılmış, monitor və 4 projektor quraşdırılmışdır.

Bina istilik, elektrik və su sistemi ilə təchiz olunmuş, həyətdə abadlıq işləri aparılmışdır.

Ali Məclisin Sədri stadionda rayondaxili və rayonlararası yarışların keçirilməsi, qurulanların qorunması ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 773